

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

18 avqust 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 32 (3595)


# DAVAMLI İNKİŞAFLA ÖLKƏMİZ REGİONUN LİDERİDİR



Ölkəmiz qlobal böhranla mübarizə dövründə belə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan heç bir sosial layihəni təxirə salmır. Bu da bir daha təsdiq edir ki, bölgələrin yüksəlişi davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı naminə uğurla reallaşdırılan dövlət proqramları ölkədə qeyri-neft sektorunun davamlı yüksəlişinə, sosial infrastrukturun keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, iş yerlərinin açılmasına, nəticədə, əhalinin məşğulluğunun artırılmasına təkan verib.

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında əksini tapmış vacib istiqamət insan amilinə xidmət etməklə yeni sosial-infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin tikintisi, yeni yolların çəkilişi və əsaslı bərpasını nəzərdə tutur.

Prezident İlham Əliyev müntəzəm olaraq bu layihələrin icrası ilə yerində tanış olur. Yəni tez-tez regionlara səfər edərək həm görülən işlərlə maraqlanır, həm də sakinlərlə səmimi görüşlər keçirərək onların problemlərini öyrənir. Bəzən elə olur ki, vətəndaşın problemi yerindəcə həll edilir və ya dövlət başçısı tərəfindən məsələnin həlli ilə bağlı aidiyyəti qurumlara tapşırıq verilir.

Dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın İsmayıllı və Ağsu rayonlarına səfərləri zamanı yeni obyektlərin açılışı və Prezidentin Azərbaycan Televiziyasına müsahibəsində əhalini maraqlandıran məsələlərə aydınlıq gətirməsi də deyilənlərin əyani təsdiqidir.

Son illərdə iqtisadiyyatımızın dayanıqlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan aqroparklar ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına, həmçinin emal sənayesinin yerli xammalla təminatının yaxşılaşdırılmasına mühüm töhfələr verir. Aqroparkların yaradılması aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının güclənməsində əhəmiyyətli rol oynayır.

Respublikanın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılıb. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb.

İndiyədək aqroparklara 1,3 milyard manat özəl investisiya qoyulub. Bununla yanaşı, dövlət tərəfindən aqroparklara müvafiq dəstək tədbirləri görülüb. Belə ki, investisiya təşviqi sənədi almış 27 aqroparkdan 26-sına texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 43,7 milyon manat dəyərində güzəşt tətbiq olunub, 25 aqroparkın yaradılması və ya fəaliyyətinin genişləndirilməsi üçün 184,2 milyon manat güzəştli kredit verilib. Həmçinin aqroparklar üçün infrastruktur təminatı dövlət vəsaiti hesabına həyata keçirilir. Aqroparklar məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. Hazırda aqroparklarda ümumilikdə 4491 işçi daimi, 6303 işçi isə mövsümi işlə təmin olunub. Gələcəkdə əlavə 4672 iş yerinin açılması nəzərdə tutulur.

Artıq ölkədə 44 aqropark fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə işləri aparılır. 2018-ci ildən heyvandarlıq və əkinçilik sahəsi üzrə fəaliyyətə başlayan "Ağsu Aqropark"ın ümumi ərazisi 1843 hektar olmaqla, layihə dəyəri 18 milyon manatdır. Aqroparkın tikintialtı sahəsi 10 hektar təşkil edir. Yerli mütəxəssislərə önəm verən Qapalı Səhmdar Cəmiyyəti əhalinin məşğulluğunun təmin edilməsini mühüm bir vəzifə kimi öz üzərinə götürüb. Hazırda burada 200-ə yaxın daimi işçi çalışır, mövsümdən asılı olaraq 240-250 nəfər işlə təmin edilir.

Regionların inkişafı dövlət proqramlarına uyğun olaraq avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi də ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra edilir.

Həm işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, həm də ölkənin digər bölgələrində ən müasir yollar salınır. Bütün illərdə olduğu kimi, 2022-ci ildə dövlət proqramına uyğun olaraq bütün yol-nəqliyyat infrastrukturları uğurla icra olunur. Bu il Prezidentin iştirakı ilə bir çox rayon və şəhərlərdə yeni yollar istifadəyə verilib.

Bu bir həqiqətdir ki, işğaldan azad edilmiş rayon və şəhərlərimizə gediş-gəlişin və daşınma prosesinin təmini üçün yolların əhəmiyyəti çox böyükdür. Hazırda həmin ərazilərdə 14 yol-nəqliyyatı infrastruktur layihəsi icra olunmaqdadır. Tikintisinə ötən il başlanılan bir neçə mühüm yol infrastrukturu isə artıq istifadəyə verilib.




Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il avqust ayının 25-də Şəki Şəhər Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 24.08.2022-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.

*Azərbaycan Prezidenti İlham Əliyev avqustun 15-də Qırğız Respublikasının Nazirlər Kabinetinin sədr müavini Bakıt Torobayevi qəbul edib.*

*Dövlətimizin başçısı avqustun 16-da Türkmənistanın, İsveç Krallığının, Argentina Respublikasının və Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfirləri Qurbanməmmet Elyasovun, Tobias Lorentzonun, Marianxeles Belluşinin, Ralf Horlemannın etimadnamələrini qəbul edib.*

# Unudulmaz sənətkar, dahi azərbaycanlı

Avqustun 17-də Bakının Dənizkənarı Milli Parkında dünyaşöhrətli müğənni Müslüm Maqomayevin abidəsinin açılışı olub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

Sonra unudulmaz sənətkarın ömür-gün yoldaşı, SSRİ Xalq artisti, məşhur opera müğənnisi Tamara Sinyavskaya, kinorejissor, Xalq artisti Oqtay Mirqasımov, Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov, Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli çıxış ediblər.



Daha sonra Prezident İlham Əliyev Müslüm Maqomayevin abidəsi üzərindəki örtüyü götürüb.

Qeyd edək ki, Prezident İlham Əliyev 2020-ci il martın 12-də Azərbaycan musiqi mədəniyyəti xəzinəsinin zənginləşdirilməsinə dəyərli töhfələr vermiş fitri istedada malik görkəmli sənətkar, dünyaşöhrətli opera və estrada müğənnisi, SSRİ Xalq artisti Müslüm Maqomayevin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı Sərəncam imzalayıb. Həmin Sərəncama əsasən ucaldılan abidənin müəllifi Xalq rəssamı, heykəltəraş Ömər Eldarovdur. Bürüncdən hazırlanan abidənin hündürlüyü 2 metrdir. Abidənin önündə Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsi quraşdırılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mədəniyyət və incəsənət xadimləri ilə söhbət ediblər.

Sonda xatirə şəkilləri çəkdirilib.





# ARZUSU ŞUŞANI GÖRMƏK İDİ...

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçumuz, çavuş Məmmədov Elvin Tərlan oğlu 1992-ci il dekabrın 12-də Biləsuvar rayonunun Xırmandalı kəndində doğulub. Xırmandalı kəndində yerləşən şəhid Ceyhun Məhərrəmov adına 1 saylı tam orta məktəbin məzunu olan Elvin burada 9 il oxuyub. Sonra rayondakı peşə məktəbində təhsil alıb.

2011-ci ilin yanvar ayından 2012-ci ilin iyul ayınadək Elvin Müdafiə Nazirliyinin Sumqayıtdakı "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Ehtiyata buraxıldıqdan bir müddət sonra hərbi xidmətə qayıtmağa qərar verib. 2013-cü ilin may ayının 10-dan etibarən Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb.

16073 və 67987 saylı hərbi hissələrdə xüsusi vasitələrin tətbiqi bölməsinin manevr qrupunda baş atıcı, xüsusi təyinatlı dəstənin atəş təminatı qrupunda heyət nəfəri, eləcə də xüsusi həmlə qrupunda atıcı vəzifələrində xidmət edib.

Suraxanı Rayon Polis İdarəsinin Post-Patrul Bölüyü komandirinin müavini, polis mayoru Natiq Allayarov: "Elvini 2015-ci ildən tanıyıram. Vətənpərvər, hərtərəfli hazırlığa malik hərbi qulluqçu idi".

2018-ci ilin iyun ayının 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakının Azadlıq meydanında keçirilən hərbi paradda Elvin iştirak edib. Azərbaycan Respublikası Müdafiə nazirinin 26 iyun 2018-ci il tarixli müvafiq əmrinə əsasən, Elvin "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub.

Vətən müharibəsində Füzuli-Cəbrayıl rayonları istiqamətində döyüşüb. Vətən müharibəsi iştirakçısı baş çavuş Elnur Zuliyev: "Döyüş əməliyyatları başladıqda düşmənlə təmas xəttindəki mövqelərdə cəmləşmişdik. Sentyabrın 30-da Lələtəpə yüksəkliyindən hücuma keçdik. Təcavüzkarın birinci müdafiə xəttini yardıq, qruplarla əsasən Arazqırağı zonada yerləşən postları nəzarətə götürdük. Erməni hərbçiləri bizim həmlələrimiz qarşısında dayana bilmədilər, bir qismi məhv edildi, qalanları geri çəkildilər. Oktyabrın 1-də düşmənin yardığımız birinci və qarşımızdakı ikinci müdafiə xətləri arasında olan yüksəklikdə mövqelənmişdik. Mövqeyimiz müxtəlif çaplı silahlardan şiddətli atəşə tutulurdu, Elvinin olduğu cinahda sursat qurtarmışdı. Onlara sursat yeşiyini çatdırarkən minaatan mərmisinin partlaması nəticəsində çavuş Hilal İmanzadə şəhid oldu, Elvin isə qolundan yüngül qəlpə yarası aldı. Oktyabrın 2-nə keçən gecə düşmən bizim mövqeyə hücuma keçsə də, geri oturduldu, əks-hücuma başlayaraq onların postlarına doğru irəlilədik. Bu hücumumuza da işğalçılar tab gətirə bilmədilər, onlara postlardan çıxmağa imkan vermədik, o gün axşamadək düşmənin ikinci müdafiə xəttindəki mövqeləri tərəfimizdən darmadağın olundu. Oktyabrın 3-nə keçən gecə, saat 03:00 radələrində tapşırıq aldıq ki, qarşıdakı yüksəkliyə doğru irəliləməliyik. Mən, Elvin və Çingiz adlı döyüşçü eyni qrupda idik. Qrupumuz öndə gedirdi, bəzi hallarda köməyə ehtiyac yarandıqda işğalçıların atəş nöqtələrini susdurmaq üçün digər qruplar da dəstək verməyə çağırırdıq. Döyüş zənciri şəklində irəliləyirdik. Cəbrayıl rayonunda ermənilərin xarabalığa çevirdikləri kəndlərdən birinə yaxınlaşmışdıq. Bu xarabalığa qədər təxminən 200 metr məsafə olardı, ermənilərin səslərini eşitdik. Düşmən havaya işıqlandırıcı fişəng atdı. Biz hərəkətsiz qaldıq ki, yerimizi bilməsinlər. Ancaq onlar bizi görmüşdülər. Şiddətli atəşə məruz qaldıq. Gecəgörmə cihazı vasitəsilə atəşin istiqamətini korrektə edirdilər. Bu vəziyyətdə cavab atəşi açaraq təcavüzkarın üzərinə hərəkəti davam etdirdik. Minaatanlardan atəşə tutulduq, həmin anda Çingiz məndən solda, Elvin isə sağ tərəfdə idi. Mərmilərdən biri Çingizin, digəri Elvinin önünə düşərək partladı. Hər ikisi yerə uzanmışdı, onları çağırdım, Çingizdən səs gəldi, Elvindən səs gəlmədi... Yerimizdə dayana bilməzdik, həmlələr edərək xarabalıqda mövqelənmiş düşməni məhv etdik, ətrafdakı postlar da susduruldu, ancaq snayper atəşindən yaralanan döyüşçülərimiz oldu. Döyüşdən sonra ilk minaatan mərmilərinin düşdüyü əraziyə qayıtdım, Çingiz və Elvini axtardım, Çingiz sağ qalmışdı, Elvinin isə nəşini gördüm, çox sarsıldım".

Hərbi qulluqçumuz oktyabrın 3-də Cəbrayıl rayonu ərazisində şəhidlik zirvəsinə ucalıb. 6 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə də həmin tarix qeyd edilib, hərbi qulluqçumuzun hərbi əməliyyatda baş beyinin travması nəticəsində həlak olduğu yazılıb, ancaq ərazi olaraq Füzuli rayonu göstərilib.

Şəhid xüsusi təyinatlı Xırmandalı kəndinin qəbiristanlığında dəfn olunub. Bu kənddən 13 nəfər Birinci Qarabağ müharibəsində şəhid olub, Vətən müharibəsində isə şəhadətə ucalan Elvindir.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15, 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla çavuş E.Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidimizin Sevinc adlı övladı bizə əmanət qalıb. Qardaşı Rəşad polis əməkdaşıdır.

*Yalçın Abbasov,*
*DİN Daxili*
*Qoşunlarının veteranı*

# Qəhrəmanlara medallar təqdim olundu




Nərimanov RPİ-də növbəti rəisyanı əməliyyat müşavirəsi keçirilib. Müşavirədə Vətən müharibəsində iştirak etmiş, hazırda isə idarədə xidmət edən polis əməkdaşlarına medallar da təqdim olunub.

İclas torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

**İdarənin rəisi, polis polkovniki Vaqif Müslümov** çıxışında 44 gün davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qazandığı tarixi qələbədən söz açıb, əsgərlərimizin misilsiz igidlik göstərdiklərini və tariximizə yeni qəhrəmanlıq salnaməsi yazdıqlarını qeyd edib.

Bildirilib ki, müharibədən sonra şəhid ailələrinə və qazilərə dövlət səviyyəsində göstərilən böyük diqqət və qayğı ilə yanaşı, hər birimiz onlara dərin hörmət bəsləməli, problemlərinin həllinə çalışmalıyıq. Müharibə iştirakçılarının daxili işlər orqanlarında xidmətə qəbul edilməsini daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun daim diqqət mərkəzində saxladığını yada salan idarə rəisi, bunun şəxsi heyət arasında vətənpərvərlik ruhunun yüksəlməsinə də təsir etdiyini qeyd edib. Yeni əməkdaşların müharibə vaxtı səngərdə göstərdikləri dözüm, rəşadət və fədakarlıqları bundan sonra rayon ərazisində cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunmasında sərgiləyəcəklərinə əminlik ifadə edilib.

Daha sonra "Vətən müharibəsi iştirakçılarının təltif edilməsi haqqında" Azərbaycan Prezidentinin Sərəncamına əsasən Vətən müharibəsində aparılan döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə verdiklərinə görə "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif edilmiş, hazırda isə Nərimanov



**PPXB-də xidmət edən polis serjantı Ceyhun Abışova və polis kiçik serjantları Ələddin Nəbiyevə, Məmmədhüseyn Mehdiyevə, Xəzər Daşdəmirova, Sabir Nurullayevə, Turqay Hüseynzadəyə medallar təqdim edilib.**

İclas rayon ərazisində əməliyyat şəraitinin və gündəlikdəki digər məsələlərin müzakirəsi ilə davam etdirilib.

*R.Mehtiyev*

# Müraciətlər qeydə alınır

## Sosial şəbəkələrdə fəaliyyətimiz təqdir edilir

Ailə, qadın və uşaq problemlərinin həlli istiqamətində atılan addımlar dövlətimizin başlıca məqsəd və vəzifələrindəndir.

Bu sahədə Azərbaycan Polisinin fəaliyyətinin, xüsusən də hüquqazidd əməllərə şərait yaradan halların aradan qaldırılmasındakı rolu danılmazdır. Belə ki, daxili işlər orqanlarının əməkdaşları reydlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən uşaqları, ümumiyyətlə köməksiz vəziyyətdə olan ana və uşaqları müəyyən edərək zəruri tədbirlər görür, arzuolunmaz halların qarşısının alınmasında yaxından iştirak edirlər.

Redaksiyamıza daxil olan təşəkkür məktublarında da bunlar öz əksini tapıb.

**Sosial şəbəkə istifadəçisi Fərid İsmayilov** vətəndaş müraciətlərinə həssaslıqla yanaşılmasının polis-vətəndaş münasibətlərinin gün-gündən daha da yaxşılaşmasına zəmin yaratdığını bildirir. O, yazır: "Hər hansı bir çətinliyə düşəndə ilk olaraq polisə müraciət edirik. Azərbaycan Polisinin vətəndaş müraciətlərinə operativ və obyektiv yanaşması isə məmnunluq yaradır. Bu günlərdə qarşılaşdığımız hal bizdə çaşqınlıq yaratmışdı, etinasız qala bilməzdik. Nə edəcəklərini, hara gedəcəklərini bilməyən, köməksiz vəziyyətdə qalmış 19 yaşlı ana və 2 yaşlı qızcığazın taleyi sual altında idi. Sağ olsunlar, yenə də köməyimizə Azərbaycan Polisi çatdı. Çağırışımıza tez bir zamanda yetişərək, ana və azyaşlı övladının sığınacağa yerləşdirilməsində yaxından köməklik göstərdilər. Azərbaycan Polisinin xidməti rəğbətəlayiqdir".

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Uğurlu birgə əməliyyat

Balakən Rayon Polis Şöbəsinin əməkdaşlarının və Daxili İşlər Nazirliyi Daxili Qoşunların hərbi qulluqçularının birgə keçirdikləri əməliyyatlar zamanı narkotiklərin qanunsuz dövriyyəsi, kultivasiyası ilə məşğul olan 7 nəfər saxlanılıb.

Şəki regional qrupumuzdan bildirilib ki, polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçularının rayon ərazisində yerləşən yüksək dağlıq ərazilərdə birgə keçirdikləri "Darama" əməliyyatları zamanı 3 narkotik plantasiyası aşkar edilib.

Həmin plantasiyaları salan şəxslərdən yaş halda çəkisi 900 kiloqram olan 1098 ədəd narkotik tərkibli çətənə kolu, 13 kiloqrama yaxın qurudulmuş marixuana, 2 ədəd ov tüfəngi və həmin silaha aid patronlar aşkar olunub.



Daxil olan məlumat əsasında keçirilən növbəti tədbir nəticəsində isə Tacəddin Kaltayev və Elnur Əliyev tutulub, şəxsi axtarış zamanı onlardan marixuana aşkarlanıb. Araşdırma zamanı saxlanılan şəxslərin narkotik vasitəni əvvəllər məhkum olunmuş İsrafil Əliyevdən aldıqları müəyyən edilib.

Davam etdirilən tədbirlərlə İsrafil Əliyev də tutularaq istintaqa təhvil verilib və ondan satış məqsədilə üzərində daşıdığı 200 qrama yaxın marixuana götürülüb.

Polis əməkdaşlarının keçirdikləri digər əməliyyat nəticəsində isə üzərində qanunsuz odlu silah-sursat gəzdirən rayon sakini Elxan Qarayev saxlanılıb. Həmin şəxsdən istifadəyə yararlı "Kalaşnikov" avtomatı, sandıqça və 30 ədəd patron aşkarlanaraq götürülüb.

Aşkar edilən bütün faktlarla bağlı cinayət işləri başlanılıb, araşdırmalar davam etdirilir.

# BİZƏ QƏLƏBƏ YARAŞIR

## Dalğalanan bayraq, səslənən himn çəkilən zəhmətin bəhrəsidir











Konyada keçirilən V İslamiadadan aldığımız xoş xəbərlər əslində, dövlətimizin idmana və idmançılara verdiyi dəstəyin ifadəsidir. İdmanın ölkəmizdə ümummilli hərəkata çevrilməsi gələcəyimiz olan gənclərin zərərli vərdişlərdən uzaq durmasını, onların böyük uğurlara imza atmasını şərtləndirən amillərdəndir. DİO əməkdaşlarının da sərhədlər aşan qələbə xəbərlərini eşitməyə bir növ adətkar olmuşuq.

**Yeri gəlmişkən, İslamiadaya qatılan 4 polis əməkdaşından biri - Əlahiddə Çevik Polis Alayının tağım komandiri, polis leytenantı Dadaş Dadaşbəyli** ağırlıqqaldırma üzrə 102 kiloqram çəki dərəcəsində birdən qaldırmada 174 kiloqram qaldırmaqla rəqiblərini üstələyib və medal qazanıb.

DİN İdman Cəmiyyətindən verilən məlumata görə, cəmiyyətin yetirmələri, həmçinin həmkarlarımızın övladları bu oyunlarda iştirak edirlər. Onların da nailiyyətləri var. **Həmkarımız, təqaüddə olan polis polkovnik-leytenantı Radik Hüseynovun oğlu, yunan-Roma güləşi üzrə Avropa çempionu Rafiq Hüseynov 82 kiloqram çəkidə İslamiadanın qalibi olub.**

Stend atıcılığı üzrə 2015-ci ildə Azərbaycanı I Avropa Oyunlarında təmsil edən, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarında isə 2 gümüş medal qazanan Nurlana Cəfərova və Fuad Qurbanov Konyada qızıl medal qazanaraq himnimizi səsləndiriblər.

Taekvondoçu Fəridə Əzizova (67 kq) da Azərbaycanın aktivinə qızıl medal yazdıraraq oyunların qalibi olub.

Qeyd edək ki, VI İslam Həmrəyliyi Oyunları 2025-ci ildə Kamerunun paytaxtı Yaundedə keçiriləcək.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Örnək gənclərimizlə qürur duyuruq



Torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə fərqlənən, ötən il daxili işlər orqanlarında xidmətə qəbul olunan Cəlilabad Rayon Polis Şöbəsinin Post-Patrul Xidməti bölüyünün polis nəfəri, polis kiçik serjantı Röyal Musayevin təltif olunduğu növbəti medalı **RPŞ-nin rəisi, polis polkovniki Polad Qarayev** ona təqdim edib. Bu münasibətlə düzənlənən tədbirdə gənc əməkdaşı təbrik edən şöbə rəisi həmkarımıza xidmətində uğurlar arzulayıb, etibarı və inamı bundan sonra da doğruldacağına əminliyini bildirib.

Qeyd edək ki, polis kiçik serjantı Röyal Musayev Vətən müharibəsində iştirakına görə bundan əvvəl Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

# Biləsuvarda nəzarət tədbirləri



Yay aylarında kənd təsərrüfatı və digər ərzaq məhsullarından zəhərlənmə riskinin artması nəzərə alınaraq küçə ticarətinin qarşısının alınması ilə bağlı nəzarət tədbirləri gücləndirilib.

Lənkəran regional qrupumuzdan verilən məlumata görə, Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən bu istiqamətdə nəzarət-profilaktiki tədbirlər zamanı yol və səkiləri zəbt edərək piyadaların hərəkətini çətinləşdirən, küçələrdə antisanitar vəziyyət yaradaraq pərakəndə ticarətlə məşğul olan, ərzaq məhsullarını heç bir gigiyenik norma və tələb gözlənilmədən elə yolun kənarında yığan şəxslər müəyyənləşdirilib. Onlarla ətraflı şəkildə izahedici söhbətlər aparılıb və yalnız müəyyənləşdirilmiş yerlərdə ticarətlə məşğul olmağın zəruriliyi barədə xəbərdarlıqlar edilib.

Polis əməkdaşlarının sanitar-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə keçirdikləri tədbirlər zamanı, həmçinin məişət tullantılarının ətrafa atılması faktları da aşkarlanıb. Ərazinin zibillənməsi halları ilə bağlı həmin şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin 266.3-cü (Məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə) maddəsinin tələbini pozduğuna görə inzibati qaydada protokol tərtib edilib.

Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşları, eyni zamanda, avara və dilənçiliklə məşğul olan şəxslərlə bağlı tədbirlər də təşkil edib. Bu kimi hallarla bağlı müəyyənləşdirilən şəxslərlə profilaktiki söhbətlər aparılıb və onlar qeydiyyatda olduqları rayonlara göndəriliblər.

*Məhəmməd Rzayev,*
*polis baş leytenantı*

# Dövlətin keşikçiləri

## Adı hüquq mühafizə orqanlarının tarixinə əbədi həkk olmuş nəsil

Azərbaycanın dövlətçilik tarixinə hüquq mühafizə sistemindəki xidməti ilə düşmüş məşhur bir nəsil, bir soyad var – Qanbayevlər.

Atadan oğula, oğuldan nəvəyə keçən və bir xalqın nəhayət bir gün müstəqil dövlət qurmaq arzularına işıq tutan şəcərənin ta ki 18-ci əsrdən bəri gələn şərəfli yolu günümüzə qədər çatıb. Hüquq mühafizə orqanları dövlətin ən mühüm təsisatlarından olduğuna görə bu nəslin uniforma daşıyan hər bir nümayəndəsinin xidməti, eyni zamanda dövlətin, xalqın keşiyini çəkmək anlamına gəlir istər-istəməz.


Qanbayev Xanbala Polad oğlu


Qanbayev Ənzəli Xanbala oğlu


Qanbayev Gəncəli Xanbala oğlu




Bu ailənin Xanbala Qanbayevdən başlayan vətənə, dövlətə sədaqətli xidmət estafetini onun iki övladı – prokuror Ənzəli və milis əməkdaşı Gəncəli Qanbayev qardaşları alıb. Şərur, Sabunçu, Yasamal, Suraxanı rayon prokurorluqlarının müstəntiqi, daha sonrakı ayrı-ayrı illərdə Neftçala rayonunun, Bakı şəhər prokurorluğunun daxili işlər orqanlarının istintaqa və təhqiqata nəzarət üzrə şöbəsinin prokuroru vəzifəsində çalışmış Ənzəli Qanbayev qanunun aliliyinə inanan cəmiyyət quruculuğunun yükünü çiyinlərinə götürənlərdən olub. Qardaşı isə ata məsləyini Şirvan şəhər Milis Şöbəsində əvvəlcə rəis müavini, sonra isə rəis vəzifəsində çalışmaqla davam etdirib.

Ənzəli Qanbayevin hüquq mühafizə orqanlarında dövlətin mənafeyi naminə çalışmış Eldar və Dəyanət adlı övladlarının da xalqımızın cinayətkar qəsdlərdən qorunmasında, xüsusən təhlükəsizlik orqanlarının milliləşdirilməsində müstəsna xidmətləri vardır...

Bu ailənin dövlətə xidmət etməsinin başlanğıcı sovet dönəminə təsadüf etsə də, qanunların icrasına nəzarət edən, onun aliliyinə birbaşa cavabdeh olan "paqon" daşıyanların soyadı hüquqi cəmiyyət quruculari kimi hər zaman dərin hörmətlə çəkilir, çəkilməlidir də. Çünki sağlam vətəndaş cəmiyyəti qurmaq və güclü dövlət yaratmaq üçün, ilk növbədə, ölkədə sabitlik, əmin-amanlıq olmalıdır. Bu isə qanunun aliliyinə inanan cəmiyyət formalaşdırmaqla mümkün olur. Tariximizin sovet dönəmində hüquq mühafizə orqanlarının əməkdaşları məhz buna çalışıblar və institutlaşmış qurum yaratmağa nail olublar. Elə bu səbəbdən polisin də milis dövrü bizim üçün önəmlidir.

Bu varislik xətti bu gün Qanbayevlər adına da davam edir. Eldar Qanbayevin oğlu, Şirvan ŞPŞ İctimai Təhlükəsizlik Bölməsinin sahə rəisi, polis baş leytenantı Toğrul Qanbayev sözün əsl mənasında, nəsildən-nəsilə keçən məsuliyyətli, çətin, eyni zamanda, şərəfli yolun davamçısıdır. Bəlkə bunu obrazlı dillə vətənin müdafiəsində, xalqın, vətəndaşın qanuni maraqlarının qorunmasında Qanbayevlərin növbə dəyişimi kimi də ifadə edə bilərik. Bu gün Vətən növbəsində həmkarımız Toğruldur...

*R.Mehtiyev*

# BİZƏ YAZIRLAR Kİ...

İtalyan yazıçısı Qarsiya Markes yazırdı: "Ədəbiyyat olmasaydı, dünya zərrəcə dəyişməzdi. Amma polis olmasaydı, dünya tamamilə başqa cür olardı".

Polisin, eləcə də digər hüquq-mühafizə orqanlarının xidməti ölkənin bir çox strukturlarının fəaliyyətinə birbaşa təsir edir. Əslində, bu, həm də bir harmoniyadır. Cinayətkarlıqla mübarizədən tutmuş hər bir sahənin inkişafına qədər birgə fəaliyyətin təsiri özünü aydınca büruzə verir. Odur ki, cəmiyyətin də bu qurumların işinə, inkişafına, daha çevik imkanlara sahib olmalarına töhfə verməsi arzulanan nəticələrə gətirib çıxarır.

Çıxışlarının birində möhtərəm Prezidentimizin: "Cinayətkarlığa qarşı mübarizədə polis işçiləri ön cəbhədədir. Bu gün Azərbaycanın uğurlu inkişafında, ölkəmizdə sabitliyin tam şəkildə bərqərar olunmasında, asayişin yüksək səviyyədə qorunmasında polis orqanlarının böyük xidmətləri var. Mən polisin işini yüksək qiymətləndirirəm" deməsi xidmətimizə verilən ən böyük dəyərdir.

Yeri gəlmişkən, DİN-ə ünvanlanan məktublardan da aydın görünür ki, xalqımız bizə güvənir və etibar edir.

**Tovuz rayon sakini Dəmir Qurbanov** yazır: "Tovuz Rayon Polis Şöbəsinin rəhbərliyi və şəxsi heyəti rayonumuzda sabitliyin, təhlükəsizliyin, insan hüquq və azadlıqlarının keşiyində ayıq-sayıq dayanaraq narkomaniya və qarşı barışmaz mübarizə aparmaqla yanaşı, II Qarabağ Müharibəsində ağır xəsarətlər almış qazilərimizə, eləcə də şəhid ailələrinə daim diqqət və qayğı göstərir, müalicəyə ehtiyacı olanlara köməklik edirlər. Polisin yorulmaz fəaliyyəti ölkəmizdə sabitliyin daha da qorunub möhkəmləndirilməsinə, dövlətimizin qüdrətlənməsinə, beynəlxalq aləmdə ən sabit, ən təhlükəsiz ölkə olaraq nüfuzunun daha da yüksəlməsinə, vətənimizin tərəqqisinə xidmət edir".

"Bir ildən çox idi ki, məni aldadan şəxsdən pulumu ala bilmirdim. Polisə şikayət edəcəyimi bildirsəm də, "Əziyyət çəkib şikayət etmə, onsuz da bu iş alınmayacaq" deyənlər oldu. Sosial şəbəkə vasitəsilə DİN rəhbərliyinə mənə edilən dələduzluqla bağlı müraciət etdim. Ertəsi gün Abşeron RPİ-nin Saray Polis Bölməsinə dəvət olundum. Orada məni rəis müavini, polis polkovnik-leytenantı Ziyad İbrahimov qəbul edib dinlədi. Ərizəm alındı. İki gün ərzində mənə dəymiş ziyan ödətdirildi. Mənə "özünü yorub şikayət etmə" deyənlərə Azərbaycan Polisinin vətəndaşın yanında olmasını və hüquqlarını qorumasını sübut etdim. Göstərilən köməkliyə görə ailəm və öz adımdan DİN rəhbərliyi başda olmaqla, Abşeron RPİ Saray Polis Bölməsinin şəxsi heyətinə minnətdarlığımı bildirirəm".

Bu sözlər **Bakı şəhər sakini Elnur Nəbiyevin** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

*R.Əliyeva*

# Uşaqdan-böyüyə: hər birimiz bilməliyik...

**Şəki Şəhər-Rayon Polis Şöbəsinin Dövlət Yol Polis Bölməsinin təşkilatçılığı ilə Şəki şəhəri 14 saylı uşaq bağçasında maarifləndirmə tədbiri keçirilib.**

Uşaqlara əyani vasitələrdən istifadə etməklə avtomobil, piyada, küçə, yol, səki, işıqfor, piyada keçidi və digər anlayışlar barədə ətraflı məlumatlar verilib. Eləcə də, uşaq bağçasının rəhbərliyinə və tərbiyəçilərinə tövsiyə edilib ki, uşaqların məktəblilər tərəfindən bağçalara ötürülməsinə imkan verilməsin. Uşaqlar bağçalara yalnız valideynlər tərəfindən aparılmalıdır.



Qeyd olunub ki, azyaşlı uşaqlar küçə və yollara nəzarətsiz çıxır, velosiped və ya arabacıqlar sürürlər, topla oynayırlar. Bəzən valideyn məsuliyyətsizliyi faciələrə yol açır, uşaqlar həyatla vaxtsız vidalaşırlar...

Sonra uşaqlar, yol hərəkəti qaydalarına aid bilik və bacarıqlarını nümayiş etdirib, şeir və mahnılar səsləndiriblər. Fərqlənənlərə Dövlət Yol Polis Bölməsinin təbliğat və təşviqat üzrə inspektoru, polis baş leytenantı Tural Niftalıyev tərəfindən həvəsləndirici mükafat, hədiyyə təqdim olunub.

*Mahir Məsimov,*
*polis baş leytenantı*

# Narkomaniya əleyhinə tamaşa



Narkomaniya əleyhinə mübarizəyə dəstək vermək məqsədi ilə Səhnə teatrı "Qaranlıqdan işığa" adlı tamaşa hazırlayıb. Tamaşa ilk dəfə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Mərdəkan Mədəniyyət Sarayında oynanılıb.

Tamaşadan əvvəl həkim-narkoloq Asif Kəngərli "Narkomaniya, alkoqolizm və tabakomaniyanın fəsadları" mövzusunda çıxış edib. Daha sonra tamaşa təqdim olunub.

Bakı kəndlərində, o cümlədən bölgələrimizdə nümayişi nəzərdə tutulan tamaşa narkomaniyaya aludə olmuş gəncin keçirdiyi iztirablardan, yaşadığı acınacaqlı həyatdan və ailəsinə gətirdiyi faciələrdən bəhs edir.

Daxili işlər orqanlarının əməkdaşları tərəfindən yabanı halda bitən narkotik tərkibli bitkilərin aşkar edilməsi istiqamətində uğurlu əməliyyat tədbirləri davam etdirilir.



# Narkotik tərkibli bitkilər məhv edildi

Xidmətimizin Quba regional qrupundan verilən məlumata görə, Xaçmaz Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri "Xaş-xaş-2022" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində rayonun Şərif-Oba və Uzun-Oba kəndləri ərazisindən yabanı halda bitən narkotik tərkibli çətənə kolları aşkar edilib.

Ümumi çəkisi 1510 kiloqram olan, 3313 ədəd çətənə kolları kökündən çıxarılıb və yandırılaraq məhv edilib.

*Xəyal Talıbov,*
*polis baş leytenantı*

**Sabunçu RPİ 13-cü Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində bir avtomobildən 3900 manat, sənədlər və bank kartları olan pul kisəsini oğurlamaqda şübhəli bilinən E.Quliyev saxlanılıb.

◆◆◆

**Suraxanı RPİ 31-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini M.Mehdiyev saxlanılıb. Ondan 1 kiloqramdan artıq heroin, 28 qrama yaxın metamfetamin və 1 ədəd elektron tərəzi aşkar edilərək götürülüb.

◆◆◆

**Nizami RPİ 25-ci Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 13-də rayon ərazisindəki evlərin birindən 1535 manat dəyərində 7 ədəd velosiped oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş B.Məmmədov saxlanılıb.




◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon ərazisindəki həyətlərin birindən 450 manat dəyərində 2 ədəd su mühərriki, 1 ədəd elektrik generatoru, 20 metr rezin boru və 55 kiloqram dəmir qırıntıları oğurlamaqda şübhəli bilinən Günəşli kənd sakinləri Ə.Qasımov, M. Eynullayev və İ.Eynullayev saxlanılıb.

◆◆◆

**Sabunçu RPİ 12-ci Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində X.Bağırova zor tətbiq edib 11000 manat pulunu soyğunçuluq yolu ilə talamaqda şübhəli bilinən Bakı şəhər sakini əvvəllər məhkum olunmuş A.Novruzzadə saxlanılıb.

◆◆◆

**Xətai RPİ 35-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən Ağdam rayon sakini əvvəllər məhkum olunmuş P.Zeynalovdan 9 kiloqramdan artıq marixuana aşkarl edilərək götürülüb.



# Bizə sığındılar...

Sabunçu rayonunda valideynləri tərəfindən baxımsız vəziyyətdə atılan uşaqlar yenə də polisə sığınıblar.

Sabunçu RPİ 12-ci PŞ-nin əməkdaşları və rayon icra hakimiyyətinin nümayəndələri 3-4 yaşlarında olan bacı-qardaşın yaşadıqları mənzilə baxış keçiriblər. Valideynləri narkotik alüdəçisi olan azyaşlılar nənələrinin himayəsində qalırmış. Lakın nəvələrini saxlaya bilmədiyini deyən yaşlı qadın əməkdaşlarımızdan uşaqların sığınacağa yerləşdirilməsini xahiş edib. Sosial baxımsızlıq şəraitində olan bacı və qardaşın sığınacağa aparılmasına qərar verilib.

Bundan sonra 12-ci PŞ-nin baş inspektoru İbrahim Məmmədov, inspektorlar Tural Allahverdiyev və Azər Musayevin iştirakı ilə azyaşlılar "Ümid yeri" uşaq evinə yerləşdirilib. İndi onların həyatı daha güvənli əllərdədir...

*R.Mehtiyev*

# Atmosferi çirkləndirənlər maarifləndirilir

"Təmiz hava" aylığı çərçivəsində Zaqatala Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən atmosferin çirkləndirilməsinin qarşısının alınması məqsədilə profilaktik tədbir keçirilib.



Şəhər ərazisində keçirilən nəzarət tədbirləri zamanı nəqliyyat vasitələri saxlanılıb və onların atmosferə buraxdıqları zərərli qazların miqdarı xüsusi cihaz vasitəsilə yoxlanılıb.Yoxlama zamanı bəzi avtomobillərin ətraf mühitə normadan artıq tullantı ixrac etdiyi müəyyən olunub. Həmin nəqliyyat vasitələrinin sürücüləri ilə izahedici söhbətlər aparılıb və barələrində qanunamüvafiq tədbirlər görülüb.

# Telefon oğrusu ələ keçdi

Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində vətəndaşların etibarından sui-istifadə edərək onlara məxsus mobil telefonları ələ keçirən şəxs müəyyən edilib.

Bərdə regional qrupumuzdan verilən məlumata görə, Ağcabədi RPŞ-nin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri ilə bir neçə rayon ərazisində sakinlərin etibarından sui-istifadə edərək onların mobil telefonlarını ələ keçirən Laçın rayon sakini Ruslan Mirzəyev saxlanılıb. İlkin araşdırmalarla onun ayrı-ayrı şəxslərə məxsus 10 mobil telefonu danışıq məqsədi ilə istəyərək daha sonra mənimsədiyi müəyyən edilib. Bununla da vətəndaşlara 3600 manatdan artıq ziyan vurub.




# Stresdən azad olmağın yolları

İnsanı daim stres vəziyyətində saxlayan hormonun-kortizolun miqdarı qanda yüksək olduğu zaman biz özümüzə hakim ola bilmirik.

Həkim dietoloq Olqa Luşnikova deyir ki, stres hormonunu azaltmaq üçün, 8 saat yuxu almalı, eləcə də axşam nahara karbohidrat yeyilməlidir.

Kortizol bir çox xroniki xəstəliklər, həmçinin şəkərli diabetin səbəbkarıdır.

Amma bu hormon da orqanizmin funksiyaları üçün vacibdir.

Kortizolun miqdarı səhər saatlarında yüksəlir, onunla birgə qlükoza qalxır və beyin oyanır.

Yüksək stres, qorxu zamanı kortizol qana ehtiyat yığmağa, iltihabi prosesləri basdırmağa kömək edir.




Məhz kortizol insanı ağır durumdan çıxarmağa yardım edir.

Amma xroniki stres zamanı kortizol qanda yüksəlir, bu da insanı yorur, xəstəliklər əmələ gətirir, hipokampın beynin işini pozur.

Bunun qarşısını almaq üçün ən yaxşı vasitə yuxu rejiminə riayət etməkdir.

Kortizolu salmaq üçün paxlalılar, meyvə, tərəvəz yeyilməlidir.

Xüsusən stresli insan axşam yaxşı yeməlidir.

Bu insanlar maqniy, sink, Omeqa 3, B qrup vitaminləri içməlidir.

Eləcə də açıq havada gəzmək, intensiv məşqlər, aromaterapiya, masaj, nəfəs məşqləri kortizolu azalda bilir.

*Natiq Abdullayev*

# STATİSTİKA

## Kriminal icmal

- Avqustun 10-dan 17-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan cinayətlərdən 412-sinin, eləcə də əvvəlki dövrlərdən bağlı qalan cinayətlərdən 60-nın açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 352, o cümlədən borclu şəxs qismində axtarışda olan 223 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 19 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 19 nəfər ölüb, 16 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 219, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 9 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00
Qiyməti 40 qəpik